**Etibar DAĞLI**

mədəni-maarif.-2007.-12.-S.59.

# Xızı, adın çəkiləndə

*Məmməd Arif göz açmışdır Xızının dağlarında,*
*Cabir Novruz iməkləyib Upa yaylaqlarında,*
*Bu Müşfiqlər məkanında, Cəfərlər diyarında*
*Bir söyləyin axı necə susum, necə dinməyim,-*
*Xızı, adın çəkiləndə qanadlanır ürəyim.*

*Bu torpaqda neçə Bəşir, neçə Ramiz boy atmış,*
*Coşqun təbin Dağlı Yunis bu ellərdə oyatmış,*
*Burda Müşfiq ocağını Əbdülhəsən yaratmış,*
*Gülhüseyn söhbət etsin gecə-gündüz dinləyim,*
*Xızı, adın çəkiləndə qanadlanır ürəyim.*

*Ağasəfa barəsində iki gözəl söz deyim,*
*Ata yurdun onun kimi qoruyum, əzizləyim,*
*Qoy Əlabbas şer desin, kəlmə-kəlmə izləyim,*
*Ağasəfa ocağının sönən günün görməyim,*
*Xızı, adın çəkiləndə qanadlanır ürəyim...*

**Xızı**